

■ Aygün Sultanlı

## ANAM

İllər keçir həsrətinlə,
Gözüm yolda qalıb, anam.
Başım qoyum dizin üstə,
Tumarlarsan saçım, anam.

Ağartmışdın saçlarını,
Yolumuzda hər vaxt, hər an.
Qayıt bir yol verim sənə
Öz saçımı həmən, anam.

Həmin gecə olmazdı kaş...
Səni bizdən aldı fələk.
Həsrət saldın sinəmizə,
Alovlandı, yandı, ürək.

Göz önümdə baxışların,
Son nəfəsin verdiyin an.
Görməyəydim o anların,
Aldı səni o Yaradan...

İndi sənsiz çırpınıram,
Sudan uzaq bir balıq tək.
Bu qollarım həsrət sənə...
Buraxmazdım... ölənədək.

Həyatımda parlaq günəş,
Vardır səni hər vaxt anan.
Öz sevginlə ovut məni,
Sənsizlikdən yannam, anam...

## SARSILMAZDIR BU VƏTƏNİM, BU DÖVLƏT...

Vətənimi qarış-qarış gəzdikcə,
Vüqarımdan dağa dönür ürəyim.
Gözlərimdə cənnət olur bu diyar,
Çiçək açır neçə arzum, diləyim.

Başı qarlı uca dağlar önündə,
Baş əyəndə ürəyimdə sevindim.
Vətən mənim, dağlar mənim, el mənim.
Məndən varlı varmı görən deyirdim.

Bədnəzərdən uzaq olsun torpağım,
Sağalmamış yaralarım var hələ.
Laçın, Ağdam, o Cəbrayıl, Zəngilan...
Qarabağım... azad ola gün gələ...

Gözəlliyə, bu sərvətə mailəm.
İgidlikdə ad çıxarıb bu millət.
Qurbanların sayəsində nailəm...
Sarsılmazdır bu Vətənim, bu Dövlət...



kaspi.-2017.-4-6 mart.-S.23.